*UOT 372.894(47)Az*

***Seymur Cəmaləddin oğlu Səfərov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
https://orcid.org/0009-0002-7135-9750

# ALİ PEDAQOJİ TƏHSİL MÜƏSSİSƏƏLƏRİNDƏ AZƏRBAYCAN TARİXİ ÜZRƏ SEMİNAR MƏŞĞƏLƏLƏLİRİNİN MÜZAKİRƏLƏR METODU İLƏ KEÇİRİLMƏSİNƏ DAİR QABAQCIL TƏCRÜBƏ

***Сеймур Джамаладдин оглу Сафаров***
*Азербайджанский Государственный Педагогический Университет*

# ПЕРЕДОВОЙ ОПЫТ ПРОВЕДЕНИЯ СЕМИНАРСКИХ ЗАНЯТИЙ ПО ИСТОРИИ АЗЕРБАЙДЖАНА В ПЕДАГОГИЧЕСКИХ ВУЗАХ С ИСПОЛЬЗОВАНИЕМ МЕТОДА ДИСКУССИИ

***Seymur Camaladdin Safarov***
*Azerbaijan State Pedegogical University*

# ADVANCED EXPERIENCE IN DISCUSSING SEMINARS ON AZERBAIJANI HISTORY IN HIGHER EDUCATION

**Xülasə.** Məqalədə Ali pedaqoji təhsil müəssisələrində Azərbaycan tarixinin tədrisində müzakirələr metodunun aşağıdakı üsullarından istifadəyə aydınlıq gətirilmişdir: 1) "dairəvi masa", 2) "Sokrat dialoqu", 3) "Akvarium". Sadalanan üsullar tələbələrin idrak proseslərinin, şəxsiyyətə məxsus keyfiyyətlərinin səmərəli inkişaf etməsinin təmin olunması, tələbələrin yaxşı oxuya bilməsi və yaxşı oxuması üçün əlverişli şəraitin yaradılmasına yönəlmişdir.

***Açar sözlər:*** *müzakirə, metod, qabaqcıl təcrübə, diskussiya, Sokrat dialoqu, müzakirə xəritələri, akvarium, qruplarla iş, arqument, əks-arqument, vasitəçi, müzakirə bacarığı, fikri fəallıq, nitq bacarığı*

**Резюме.** В статье разъясняются следующие методы обсуждения при преподавании Истории Азербайджана в Вузах. 1) «Круглый стол», 2) «Диалог Сократа», 3) «Аквариум». Перечисленные методы направлены на то, чтобы интеллектуальные процессы, личностные качества учащихся эффективно совершенствовались, а также повысилось качество образования.

***Ключевые слова:*** *обсуждение, метод, передовой опыт, обсуждение, диалог сократа, дискуссионные карты, аквариум, работа в группах, аргумент, экс-аргумент, посредник, дискуссионные навыки, мыслительная деятельность, речевые навыки*

**Summary.** The article clarifies the following methods of discussion in Azerbaijan's curriculum. (1) "Circuit Table," (2) "Socrates Dialogue," (3) "Aquarium. The methods listed are aimed at ensuring that students' intellectual processes, personality qualities are improved effectively, and that students can read well and read well.

***Key words:*** *Discussion, Method, Pre-Experience, Discussion, Socrates Dialogue, Discussion Maps, Aquarium, Groups Work, Argument, Opposition, Intermediary, Discussion Skills, Thought Activity, Speech Skills*

Bu məqalədə ali pedaqoji təhsil müəssisələrində Azərbaycan tarixi üzrə seminar məşğələlərinin müzakirə metoduna dair qabaqcıl təcrübələrdən bəhs olunur. Təlim səriştələrin formalaşmasının davamlı və vacib prosesidir. Ona görə də ali təhsil müəssisələrində səriştəli mütəxəssislərin formalaşdırılması problemi alimlərin, müəllimlərin, ictimaiyyət nümayəndələrinin diqqətini xüsusilə cəlb edir. Yüksək səriştəli mütəxəssislərin mövcudluğu birbaşa olaraq so-

sial və iqtisadi sahəyə təsir göstərir. "Hər kəsə nə insana, nə təbiətə, nə də cəmiyyətə zərər verməyən bilikləri öyrənmək üçün təlim keçmək lazımdır. Müasir təlim daha çox praktikaya istiqamətlənmiş olmalı, funksional savad, peşəkarlıq və tələbələrin sürətlə dəyişən dünyada həyata hazır olmaları üçün şərait yaratmalıdır. Mütəxəssis intellektual cəhətdən bacarıqlı olmalı, sistemli düşüncə tərzinə malik olmalı, öz fəaliyyətlərinin nəticələrini qabaqcadan görə bilmə bacarığına və s. malik olmalıdır" [1, s. 3222].

Müzakirə seçilmiş mövzu və ya məsələ ətrafında ideyaların, məlumatların, təəssüratların, tənqidin və təkliflərin qarşılıqlı və struktur mübadiləsidir. Hər bir müzakirə tələbə şəxsiyyətinin formalaşmasına müsbət təsir göstərir. "Tələbə şəxsiyyətində problemi təhlil etmək, həlli yolunu tapmaq, qərar qəbul etmək, fəal dinləmə mədəniyyəti, mənbələrlə işləmək, mövqeyi məntiqi təqdim etmək, məntiqi və tənqidi təfəkkürün inkişafı, şifahi nitqin inkişafı və s vacib bacarıqlar formalaşır" [2, s 459-469].

Təcrübə göstərir ki, müzakirə metodu interaktiv təlimin ən vacib elementlərindən olmaqla yanaşı, ən çox səmərə verən metodlardandır. "Müzakirənin səmərəliliyinin artırılması üçün bir sıra vacib amillər var. Müəllimin pedaqoji ustalığı, müzakirə metodlarına dərindən yiyələnməsi, dəstəkləyici mühit, şagirdlərin yaş və əqli səviyyəsi müzakirənin səmərələri təşkilində zəruri faktor olaraq görürəm" [3, s. 2-3].

Bu və ya digər metodun seçimi müəllimin qarşıya qoyduğu məqsəddən asılıdır. Bu məqsədə çatmaq üçün müəllim tələbələri həm psixoloji, həm didaktik, həm də metodik cəhətdən həmin metodun tətbiqinə hazırlamalıdır. "Materialın qavranılmasını asanlaşdırmaq üçün məntiq sxemlərindən, istinad siqnallarından istifadə etmək olar. Bu cür yenilikləri tətbiq edərkən tələbələrdə yeni anlayışları assosiasiyalar vasitəsilə qavramaq, hər hansı ictimai-siyasi problemlərə maraq, təcrübə bazasından istifadə etmək və toplanmış təcrübə əsasında yeni problemləri həll etmək bacarıqları inkişaf edir" [3, s. 4].

Müzakirə, hər şeydən öncə, tələbədə məntiqi və tənqidi düşüncəni inkişaf etdirir. Müzakirə üsulunun digər bir faydası da tələbələrdə ilk kəşf sevincinə nail olmaqda kömək etməsidir. Aparılan diskussiya zamanı tələbələr məlumat mübadiləsi edir və o məlumatları müzakirə edərək beyinlərində sistemləşdirirlər. İlkin sistemləşdirilmiş biliklər tələbəni nəticə çıxarmağa sövq edir. Bunun sayəsində onlar bilmədikləri faktları özləri kəşf etmiş olurlar. "Araşdırmalar göstərir ki, müzakirənin səmərəli olması üçün dəstəkləyici mühitlə yanaşı müzakirədə iştirak edəcək tələbələrin sayı da önəmlidir. Belə ki, 10-20 nəfərin iştirak etdiyi diskussiya daha səmərəli hesab edilir" [4, s 1-3].

Azərbaycan Pedaqoji Universitetinin professoru X.F. Məmmədov Azərbaycan tarixi üzrə seminarlarında müzakirələr metodundan səmərəli şəkildə istifadə edir. Onun fikrincə, müzakirə metodu həm keçmiş biliklərin təkrarlanmasında, həm də yeni dərsin qavranmasında müstəsna rola malikdir. Nümunə olaraq "Azərbaycan mərkəzləşmiş Səfəvilər dövlətinin yaranması" mövzusunda aparılan seminar məşğələsində müəllim iş üsulu olaraq klassik diskussiyanı seçmiş, tələbələri dairəvi masa ətrafında əyləşdirmiş, müzakirə mövzusunu aydın şəkildə və şagirdlərin öz ideyalarını ifadə edə biləcəkləri tərzdə təqdim etmişdir. Ardınca isə müəllim müzakirəni inkişaf etdirəcək suallar verməklə və şagirdlərin cavablarını nəzərdən keçirməklə müzakirəni tənzimləyir. Tələbələrin müzakirə qaydaları və mövzusu ilə tanışlığından sonra müəllim onlara "Səfəvilər dövləti necə yarandı?", "dövlətin yaranmasını zəruri edən səbəblər hansılardır?", "Qızılbaşların ideologiyası və əsas məqsədi nə idi?" kimi yönəldici suallar verməklə diskussiyanı tənzimləyir. Tələbələr fikirlərini sərbəst ifadə edir. Yanlış fikir söylənərsə, istər müəllim, istərsə də digər tələbə yoldaşlarının səhvini düzəltməyə çalışırlar. Tələbələrdən Elmirin fikrincə, "Dövlətin yaranmasının zəruriyyəti Səfəvilər təriqətinin və onların ideologiyasının sıxışdırılması və təqiblərə məruz qalması idi". Zaura görə isə "Dövlətin yaranmasının əsas səbəbi mövcud vəziyyətin Ağqoyunluların əleyhinə olması, onların içindəki bölünmədən, İsmayıl başda olmaqla, Qızılbaşların öz lehlərinə düzgün etməsidir". Günel isə yoldaşının fikrinə əlavə olaraq, "Xalqın Ağqoyunlu zülmündən bezməsi və Səfəvilərin daha yaxşı həyat, daha ədalətli dövlət quracaqları vədləri ilə xalqı öz yanına çəkməsi vacib səbəblərdəndir". Qarşılıqlı fikir mübadiləsindən sonra müəllimin rəhbərliyi ilə tələbələr diskussiyada deyilən fikirləri ümumiləşdirərək yekun nəticəyə gəlirlər. Xəqani

müəllim diskussiyanın nəticəsi olaraq: "dövlətin yaranmasına həm daxili, həm də xarici amillər təsir göstərir. İsmayıl və tərəfdarlarının mövcud vəziyyəti düzgün təhlil etməsi, Ağqoyunluların arasında olan ziddiyyətlərdən düzgün istifadə etməsi onların işini daha da asanlaşdırdı. Əlavə olaraq, Qızılbaşlar həm ideoloji, həm də hərbi qüvvəti hesaba qatılarsa, Səfəvi dövlətinin yaradılması heç də təəccübləndirici deyil",- deyir. Müəllim: "Azərbaycan mərkəzləşmiş Səfəvilər dövlətinin yaranması torpaqlarımızın vahid halda birləşdirilməsi, yadelli işğallarına qarşı çıxılması, vahid əmtəə-pul münasibətlərinin formalaşmasına və vahid bazarın yaranmasına gətirib çıxardı". Sonda Xəqani müəllim: "biz bu gün nəyi öyrəndik?"- sualını verərək dərsi yekunlaşdırır. Xəqani müəllimin fikrincə, düzgün qurulmuş diskussiya tələbələrin hərtərəfli inkişafına zəmin yaradır. Bu metod onlarda fikri fəallığa, fəal dinləməyə, fikirlərini düzgün ifadə etməyə və nəticə çıxarmağa müsbət təsir göstərir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi S.N. Ramazanova "Azərbaycan Xalq Cümhuriyyəti" mövzusuna aid seminar məşğələsini Sokrat dialoqu metodu ilə təşkil etmişdir. Müəllim öncədən seminarın vaxtını, mövzusunu və qaydalarını tələbələrə çatdırır. Dərsin əvvəlində müəllim tələbələrdən 3 qrup (Arqument, əks-arqument və vasitəçi) təşkil edir. Ortaya qoyulmuş problemin həlli üçün arqument və əks-arqument qrupları məsələnin həlli üçün vasitəçiyə öz arqumentlərini təqdim edir. Sonda isə vasitəçi hər iki tərəfin fikirlərini dinlədikdən sonra bu mövqelərdə olan faydalı ideyaları müəyyən edib kompromis və daha səmərəli yolu tapır.

Müəllim hər iki qrupa "Xalq Cümhuriyyətinin süqutunun səbəbləri" problemini qoyur. İlk öncə "A" qrupu AXC-nin süqutunun səbəblərində əsas amilin xarici təzyiq, ermənilərin basqını və aprel işğalı olduğunu müdafiə edir. "A" qrupu öz arqumentlərini bitirdikdən sonra "B" qrupu öncəki qrupun arqumentlərinə əks-arqumentlər gətirərək süqutun əsas səbəbinin xarici deyil, daxili amillər olduğunu müdafiə edirlər. Müəllim özü vasitəçi (problemin həlli) qismində çıxış edir. "A" qrupu tələbələri: "Cümhuriyyətin süqutunun əsas səbəbləri xarici təsirlərdir. Buna müstəqilliyimizin Versal sülh konfransında tam olaraq tanınmaması, Rusiyanın bizə təzyiqi, ermənilərin tez-tez Qarabağ və Naxçıvana etdiyi silahlı basqınlar və nəhayət, sonda aprel işğalı Cümhuriyyətin süqutunun əsas səbəbləridir". "B" qrupu tələbələri isə süqutun səbəblərinin daxildə olduğu vurğulayaraq bildirirlər ki, "Cümhuriyyəti süquta aparan yol daxildə olan çəkişmələrdən keçir. İyun böhranından başlayaraq hökumət kabinetlərinin təşkilində və idarə olunmasında problemlər var idi. Parlamentin daxilində fikir ayrılığı və düşmənçilik mövcud idi. V hökumət kabinetinin buraxılması, VI kabinetin təşkil edilə bilməməsi, bəlkə də qəsdən təşkil edilməməsi, ölkə daxilində 5-ci kolonun separatçı fəaliyyəti, erməni, rus və bolşeviklərin pozucu fəaliyyəti Cümhuriyyətin süqutunun əsas amilləridir". Vasitəçi hər iki tərəfin fikirlərini dinlədikdən sonra həm A, həm də B qrupunun müzakirəsi zamanı təqdim olunan arqumentlərdən məsələnin həllinə ən uyğun olanları seçir və problemi tələbələrlə birlikdə ümumiləşdirir: "Cümhuriyyətimizin süqutuna həm daxili, həm də xarici amillər təsir göstərmişdir. Müstəqilliyimizin və suverenliyimizin xaricdə qəsdən tanınmaması azmış kimi ölkə daxilində separatçı qrupların və xainlərin fəaliyyəti ölkəni daha da çətin vəziyyətə salmışdır. Təəssüf ki, onlar istədiklərinə nail oldular, bu bizə və gələcək nəsillərə dərs olmalıdır. Müstəqilliyimizi nəyin bahasına olur olsun, qorumalıyıq". Samirə müəllimin fikrincə, tələbələrin müzakirə bacarıqlarını formalaşdırmaq və inkişaf etdirmək üçün Sokrat dialoqu debatlardan daha əvvəl tətbiq edilməlidir. Düzgün təşkil edilmiş Sokrat dialoqu tələbələrdə analitik təhlilə, mənbələrlə işləmə bacarığına, tədqiqatçılığa, fikrini müstəqil ifadə etməyə və onu müdafiəetmə bacarığına müsbət təsir göstərir.

Azərbaycan Pedaqoji Universitetinin dosenti Z.H. Kərimov "Akvarium" metodundan istifadə edərək "Xürrəmilər hərəkatı" mövzunu tədris etmişdir. Zakir müəllim tələbələrə öncədən bu metod haqqında qayda və reqlamentlər açıqlayır, tələbələr daxili və xarici dairələr olmaqla yerlərində əyləşirlər. İlk olaraq. daxili dairə iştirakçıları müəllimin verdiyi problemi müzakirə edir və "lehinə" olan dəlillər irəli sürürlər. İlk öncə, daxili dairə iştirakçılarının dəlillərini dinləyək: "Babək öz milli dəyərləri, inancları və xalqı uğrunda mübarizə aparırdı. Onun heç bir siyasi məqsədi yox idi. Onun yeganə

məqsədi İslam dininin Azərbaycanda yayılmasının qarşısını almaq və öz milli dinləri ilə rahat yaşamaq idi".

Bu əsnada "xarici dairə" iştirakçıları dəlilləri dinləyir, qeydlər aparır, təhlil edir, öz əks dəlillərini hazırlayırlar: "Babəkin məqsədi din deyildi. O bilirdi ki, əgər Xürrəmilər hərəkatı qalib gəlsə, özü bu hərəkatın başında olduğu üçün müstəqil Azərbaycanın da başına keçə bilərdi. Mənbələrə əsasən deyə bilərik ki, ilk öncə. onun hərəkata qoşulma səbəbi xalqı və inancı uğrunda mübarizə aparmaq idisə, gedişatda onun planları və məqsədi dəyişdi. Buna misal olaraq, silah yoldaşları ilə aralarında yaranan mübahisələri və yoldaşlarının onu tərk etməsini göstərə bilərik". Dərsin növbəti mərhələsində, təxminən 15-20 dəqiqə sonra müzakirə dayandırılır, xarici və daxili dairədən olan tələbələr öz yerlərini dəyişirlər. İndi onlar diskussiya apararaq, əvvəlki iştirakçıların dəlillərini təkzib etməlidirlər.

İlk öncə, daxili dairə iştirakçıları Xürrəmilər hərəkatının məqsədini, Babəkin dinə və ərəb zülmünə qarşı mübarizəsini müzakirə edib onu xalq qəhrəmanı adlandıraraq "lehinə" səs vermişlər. Bu zaman xarici dairə iştirakçıları Babəkin əslində xalq qəhrəmanı olmadığına, niyyətinin dinə qarşı çıxmaq olduğuna və siyasi məqsədinin olduğuna dair fikir söyləyir və əks-arqumentlər formalaşdırırlar. 15-20 dəqiqə sonra isə daxili və xarici qrup iştirakçıları yer dəyişdirirlər. Bundan sonra artıq onlar özlərindən əvvəlki yoldaşlarının arqumentlərinə qarşı hazırladıqları əks-arqumentlərlə çıxış edirlər. "A" qrupu "B" qrupunun mülahizəsinə əks-arqument olaraq: "Babək xalqa azadlıq, öz inanclarında qalmaq vədləri vermişdi. Onun məqsədi sadəcə ərəb zülmünün sona çatması idi". "B" qrupu isə buna cavab olaraq: "Babək hərəkatın gedişində rəhbərlik arzusuna görə silah yoldaşlarını və tərəfdarlarını itirdi. Hərəkatın sonuna yaxın artıq xalq belə ona inanmaq istəmir, ondan üz döndərirdi. Bu da Babəkin xalq üçün yox, öz maraqları üçün vuruşduğunu göstərirdi. Artıq Azərbaycanda kök salmış İslam dininə qarşı çıxması nəticəsində minlərlə soydaşımızın ölümünə səbəb olduğu üçün onu xalq qəhrəmanı adlandırmaq doğru olmaz". Sonda isə müəllimin rəhbərliyi altında müzakirəyə son qoyulur, ümumiləşdirilərək yekun nəticəyə gəlinir. "Babək həm ərəb zülmünə qarşı, həm də xalqımızın öz dini etiqadları uğrunda mübarizə aparırdı. Doğrudur, onun da bir sıra səhvləri olmuşdur, amma buna baxmayaraq, o, qanının son damlasına qədər qəhrəmancasına xalqı uğrunda mübarizə aparmış, edam ediləndə belə öz yolundan dönməmişdir. Xürrəmilər hərəkatı yatırılsa da artıq Xilafət bəzi şeylərdə güzəştə getməyə məcbur oldu. Məhz bu səbəblərə görə biz Babəki xalq qəhrəmanı adlandıra bilərik!"

**Problemin aktuallığı.** Problemlə bağlı metodik ədəbiyyatın təhlili, eləcə də qabaqcıl ali məktəb müəllimlərinin təcrübələrindən məlum olur ki, pedaqoji təhsil müəssisələrində Vətən tarixinin tədrisində müzakirələr metodundan istifadənin didaktik və tərbiyəvi təsirinə baxmayaraq, bu aktual problemə bu vaxta qədər müraciət edən az sayda mütəxəssis olub. Bu sahədə olan boşluğun doldurulması problemin qismən həll edilməsinə zəmin yaradacağına inanırıq.

**Problemin elmi yeniliyi.** Müzakirənin səciyyəvi cəhətləri müəyyənləşdirilərək onun mahiyyətinə aydınlıq gətirmişdir. Müzakirə metodunun müxtəlif üsullarından istifadə edən qabaqcıl ali məktəb müəllimlərinin iş təcrübəsi öyrənilərək ümumiləşdirilmişdr. Məqalədə irəli sürülən müddəalar tarixin tədrisi metodikası elminin nəzəri əsaslarının zənginləşməsinə bir töhfə olmasıdır.

**Problemin praktiki əhəmiyyəti.** Tələbələrin idrak fəaliyyətini gücləndirmək üçün təlim zamanı müzakirə metodlarından istifadə etməklə uğurlu nəticə alınır ki, bu təcrübədən də ali məktəb müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə bilər.

Azərbaycan tarixi üzrə seminar məşğələlərində müzakirələr metodlarının rəngarəng formalarından səmərəli istifadənin yolları öyrənilərək ümumiləşdirilmişdir. Məqalədə çoxsaylı tədqiqatçıların fikir və müddəalarından istifadə edilərək müzakirələr metodunun daha təkmilləşdirilmiş metodik yolları üzə çıxarılmışdır. Bu sahədə aparılan qabaqcıl təcrübələrdən bəhs edilmişdir.

**Ədəbiyyat:**

1. Yelena V. Ponomarenkoa, Rabiga I. Kenzhebekovab, "Pedagogical Research Methods of Training in Higher Educational Establishments", -Shymkent, 2016. -3232 s
2. M.M. Əmirov, "Tam Orta Məktəbdə Tarixin Fəal / İnteraktiv Təlimi Metodikası" -Bakı, 2014. -707 s

3. Ярославцева Оксана Владимировна, "Дискуссия,как метод технологии личностно ориентированного образования на уроках истории и обществознания" -Хворостянка, 2014. - 10 с.
4. Bruce Wilson Learning "Through Discussions: Comparing the Benefits of Small-Group and Large-Class Settings", -Florida-2011. -11s.

**E-mail:** seymur.libra@gmail.com
**Rəyçilər:** *ped.elm.dok., prof.* **M.M. Əmirov,**
*ped.ü.fəls.dok.* **D. Musayev**
**Redaksiyaya daxil olub:** 17.04.2023